## İdman

# Taekvondoçularımızdan 4 medal

Taekvondo üzrə Azərbaycan çempionatına yekun vurulub. Bakı Boks Mərkəzində təşkil olunan yarışda "Qəbələ" İdman Klubunun təmsilçiləri də uğurla çıxış ediblər. İki gün davam edən çempionatda taekvondoçularımız 4 medal qazanıblar. 58 kq çəki dərəcəsində çıxış edən Əli Məmmədov bütün rəqiblərinə qalib gələrək, fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Yalnız finalda məğlubiyyətə üzülən Məcid Sofiyevlə (54 kq) Məhəmməd Məmmədovun (68 kq) qazancı gümüş medal olub. Qadınların mübarizəsində qüvvəsini sınayan Mujgan Zadmohammad (57 kq) isə yarışı 3-cü pillədə başa vurub.



Beləliklə, idmançılarımız 1 qızıl, 2 gümüş və 1 bürünc əldə ediblər.

## Yurdumuza Novruz gəlir

# İstilik və bərəkət rəmzi - od çərşənbəsi



Novruzun ikinci çərşənbəsi od çərşənbəsi bu il mart ayının 6-na təsadüf edir. Adətən hər çərşənbə axşamı tonqal qalanır. Lakin od çərşənbəsində tonqal qalanmasının daha spesefik özəlliyi vardır.

Türk xalqlarının qədim ortaq şifahi və yazılı ədəbi abidəsi olan «Kitabi-Dədə Qorqud» dastanında tonqala, oda olan münasibət və onun müqəddəsliyi haqqında geniş məlumat verilir.

Dastanda tonqalın qalanması və bizim xalqımız üçün onun hansı məna ifadə etdiyi çox gözəl şəkildə təsvir olunmuşdur. Xalqın həm şad, həm də bəd günündə tonqalın köməyə gəlməsi, onun yandırılması ilə müəyyən işlərin bəyan edilməsi « Kitabi Dədə Qorqud» dastanında öz əksini tapmışdır.

Od sərşənbəsi ilə əlaqədar bir çox atalar sözü və məsəllər də yaranmışdır. «Odu su ilə söndürməzlər», «Od çərşənbəsində ocağı boş qoymazlar» və sair.

Od çərşənbəsi günü müxtəlif xörəklər bişirilməli və süfrədə digər çərşənbələrdə olduğu kimi şirniyyatlar olmalıdır. İnanclara görə bu, sufrələrimizin bollu-bərəkətli olması, ilimizin isti, şirin və sevinc dolu keçməsinə səbəb olur. Bu əsas inanclar əsrlər boyu insanların inamları nəticəsində meydana gəlib və nəsildən- nəsilə ötürülüb.

Ocağınız isti, süfrəniz bol olsun.

**«Qəbələ»**

## Bilirsinizmi?

✦Quşlar nəfəs aldığı havanın dörddə üç hissəsini bədənlərini soyutmaq üçün sərf edirlər, çünki onlar tərləyə bilmirlər.

✦"Eskimos" sözü (eskimansiq - "çiy yiyən") hindu qəbilələrindən olan abenaklara və atabasklara aiddir.

✦Antraktida ərazisinə görə Yerin beşinci ən böyük materikidir. Onun 98 faizi orta qalınlığı 1,6 km olan buz layı ilə örtülüb.

✦Bir sıra ölkələrin silahlı qüvvələrində briqadir polkovnik hərbi rütbəsindən yuxarı, general-mayor rütbəsindən aşağı hərbi rütbədir. Bəzi ölkələrdə isə o, briqada generalı adlanır.

✦Alban hökmdarı Cavanşirin arvadlarından biri Xəzər xaqanının qızı olmuşdur.

✦Avropada 1533-cü ilə qədər kral titulu Roma papası tərəfindən verilirdi.

✦Kokos adalarında dəniz səviyyəsindən ən uca yerin hündürlüyü cəmi 5 metrdir.

✦Yunan orfoqrafiyasında sual işarəsinin əvəzinə nöqtə-vergül işarəsi qoyulur.

✦Gündə iki dəfə istiqamətini dəyişən küləyə sahil küləyi deyilir.

✦Bonist istifadədən çıxmış kağız pulları toplayan insanlara deyilir.

✦Neft Daşlarının adı Ginnesin Rekordlar Kitabına birinci dəniz neft platforması kimi düşmüşdür.

**Topladı: Süsən RÜSTƏMLİ.**

# "ASAN xidmət" mərkəzində POS-terminal quraşdırılıb



Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"nin icrası çərçivəsində Maliyyə Bazarlarına Nəzarət Palatası maliyyə inklüzivliyinin gücləndirilməsi və vətəndaşların maliyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirir.

Bu məqsədlə "AzərTürk Bank" Qəbələdəki "ASAN xidmət" mərkəzində ödəniş kartları ilə Hökumət Ödəniş Portalı (HÖP) üzərindən təqdim olunan xidmətlər üzrə nağdsız ödənişlərin aparılması üçün POS-terminal quraşdıraraq vətəndaşların istifadəsinə verib.

Yeni POS-terminal vasitəsilə vətəndaşlar tərəfindən kütləvi xidmətlərin və büdcə ödənişlərinin nağdsız formada ödənilməsi mümkündür.

**"Qəbələ"**

## Həkim məsləhəti

# Göyöskürək kəskin infeksion xəstəlikdir

Bəzi infeksion xəstəliklər fəsillə əlaqədar olaraq baş qaldırır və uşaq həyatı üçün ciddi təhlükə mənbəyi hesab olunur. Həmin ağır infeksion xəstəliklərdən biri də göyöskürək sayılır. Göyöskürək hava-damcı yolu ilə ötürülən, uzun müddət sürən və spazmatik tutmalar şəklində xarakterizə olunan kəskin infeksion xəstəlikdir. Hər il dünyada 60 milyon nəfər göyöskürəyə tutulur və 600 min nəfər həyatını itirir.

İnfeksiyanın mənbəyi xəstə insandır və onlar çox güman ki, inkubasiya dövrünün sonundan, daha çox isə prodromal dövrdə və spazmatik dövrün əvvəlində yoluxucu olurlar. Yoluxduruculuğun dərəcəsi öskürəyin intensivliyi və infeksiyalaşmış seliyin ətrafa yayılmasından asılıdır. Tək-tək öskürən silinmiş formalı xəstəlik də göyöskürəyin yayılmasında mühüm rol oynayır.

Yoluxma xəstə ilə yaxından və uzunmüddətli təmas nəticəsində baş verir. Xəstəliyə ən çox 5-7 yaşa qədər uşaqlar tutulur. Payız-qış aylarında xəstəliyin artması və davamlı olaraq hər 3-4 ildən bir təkrarlanması müşahidə edilir. Göyöskürəyə 1 yaşına qədər uşaqlarda da təsadüf edilir. Xəstələnmədən sonra davamlı immunitet yaranır və təkrar xəstələnməyə az təsadüf olunur.

İnkubasiya dövrü 5-20 gün arası, çox vaxt 10-12 gün davam edir. Prodromal dövr 7-14 gündür. Peyvənd almış yuxarı yaşlı uşaqlarda həmin dövr uzana bilər. Xəstəliyin başlanğıc dövrünün əsas əlamətləri kəskin respirator virus infeksiyasının öskürəyinə oxşar öskürəkdir. Öskürək adətən quru, çox vaxt gecə və ya yatmazdan qabaq olur. Bədən temperaturu normal və ya bir neçə gün subfebril olur. Öskürək tədricən artır, getdikcə davamlı və tutmaşəkilli xarakter alır.

Spazmatik dövrdə tutmaşəkilli öskürək bir-birinin ardınca olan nəfəsvermə təkanları ilə xarakterizə edilir və səsli, nəfəsvermə-reprizlə əvəz olunur. Öskürək tutması zamanı uşağın üzü gərginləşir, əvvəlcə qaşüstü qövslərdə, sonra bütün üzdə hipermiya meydana çıxır, üzün, ağızın selikli qişasının sianozu da ola bilər. Öskürək tutması qatı şəffaf bəlğəmin xaric olması və ya qusma ilə nəticələnir, lakin qusma xəstələrin heç də hamısında olmur. Öskürək tutması gün ərzində 5 dəfədən 40-50 dəfəyə qədər təkrarlana bilər, çox vaxt yuxuda baş verir, təmiz havada isə azalır. Yuxarı yaşlı uşaqlar çox vaxt tutmaların yaxınlaşmasını hiss edəndə udlaqda göynəmə, qaşınma hiss yaranır. Bəzən öskürək tutmaları zamanı sklerada qansızma və burundan qanaxma olur. Öskürək tutmaları getdikcə artır və spazmatik dövrün ikinci həftəsində maksimuma çatır.

Xəstəliyin əlamətlərinin sönmə dövrü 2-3 həftə davam edir, öskürək öz tipik xarakterini itirir, azalır və yüngülləşir, qusmalar baş vermir. Göyöskürəyin gedişi əsasən uzun çəkir, spazmatik dövr 2-3 aya qədər davam edə bilər. Peyvənd almış uşaqlarda göyöskürək, adətən, atipik, silinmiş formada olur, spazmatik öskürək olmadan gedir.

Uşaq müəssisələrində göyöskürək aşkar ediləndə xəstə 25 gün təcrid olunur. Xəstəlik keçirməyən və peyvənd almayan 7 yaşınadək uşaqlara xəstə ilə axırıncı təmasdan 14 gün keçənədək karantin təyin olunur. Xəstəlik keçirən və 7 yaşından yuxarı uşaqlar kollektivdən uzaqlaşdırılmalıdır.

**Hikmət ABDULLAYEV, GEM-in sanitar həkimi.**

## Şəfalı bitkilər

# Üzərlik

*Bu qiymətli dərman bitkisi Azərbaycanın yarımsəhra rayonlarında yetişir.*

*Həkimlə məsləhətləşmədən onu daxilə qəbul etmək olmaz - dozası artıq olarsa zəhərlənmək təhlükəsi gözlənilir.*

*Üzərlik həmçinin bəlğəmgətirici effektə malikdir və soyuqdəymələrdə faydalıdır. Üzərliyin həlimi yaddaşı möhkəmləndirir, nevralgiyada və baş ağrılarında istifadəsi xeyirlidir. 30 qram döyülmüş üzərliyi 120 qram suda qarışdıraraq qaynadırlar, sonra həlimi 90 qram bal və 60 qram küncüt yağı ilə qarışdırılar.*

*Xroniki baş ağrısını aradan qaldırmaqdan ötrü 340 qram üzərlik toxumunu 1 litr çaxırda və ya üzüm şirəsində o qədər qaynatmaq lazımdır ki, ta qarışıq qatı şirə şəklinə düşsün. Şərbətdən 3 gün ərzində, hər dəfə 60 qram içməklə baş ağrısını aradan qaldırmaq olur.*

*İbn Sina (980-1037) yazır ki, oynaq ağrıları və oturaq sinirin iltihabı zamanı ağrıyan yerlərə üzərlik toxumlarının həlimini sürtmək xeyirlidir.*

*Monqol xalq təbabətində mərcimək varı üzərliyin torpaq üzərindəki hissələrindən orqanizmi möhkəmlədən güclü vasitə kimi istifadə edirlər. Tibetdə üzərlik toxumunun həlimini qızdırmayla müşayiət olunan ağciyər xəstəliklərində içirlər.*

*Elmi təbabətdə üzərliyin toxumlarından və köklərindən alınmış alkaloid harmalin əsəb xəstəliklərində, xüsusilə parkinsonizmdə, eləcə də epidemik və letargiyalı ensefalitin ağırlaşmalarında istifadə edilir.*

## İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 09 saylı qərarı ilə Mirzəbəyli kənd sakini **İbrahimov Xanlar Əhməd oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 089G nömrəli (kod 40613018 ) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər
Məsul katib
Qüdrət Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1799